# Üç şairdən üç duyğu yarpağı

*"Qapımıza deyil, qəlbimizə müraciət edən buyursun..."*

***Ş.Təbrizi***



## SÖZƏ TƏŞNƏ ZAKİR MƏMMƏD

***(Zakir Məmməd – Birinci yarpaq)***

Söz biləndə bir adam az,
Səs salıb meydan sulamaz.
Zakir, könlünə qulaq as,
Söz ona təslim olacaq.

Bir qələm dostumun dedikləri yadıma düşdü:

"Sən şeirləri yazarkən sanki onları pıçıldayaraq yazırsan". Bəlkə, elə bu pıçıltılarda Şair özünü sözlə izhar etməyə çalışır? Pıçıltılar olmasa, aşıb-daşan boşluqları necə doldura bilər ki? Qışqıra-qışqıra, bağıra-bağıra hansı boşluq doldu ki?

Mətləbə keçmək bəzən çox çətin olur, belə yerdə heç söz özü də haraya yetmir. Sözü özün gətirib süfrənin başına çəkirsən. Oxşayırsan, nazına qatlaşırsan, ilhamının çarxını yağlayırsan. Söz də bəzən sənə istədiyin maneələri aşmağa yardımçı olmur. Söz də səni yarı yolda qoyub yanılda bilir. Yerində deyilmədisə, yanlış anlaşıldısa, vay o sözün halına, sahibinin üzünü qızardar.

Ədəbi aləmin söz meydanında daha toz-tozanaq qoparan sözbazları, "söz sərrafları"nı görmək mümkün olmur. Hamısı sanki özünə çəkilib bu toz-tozanağın yatmasını gözləyir. Hansı tozanağın bəs? Əgər onu yaradan olmayıbsa, bəs niyə bizə indiki mühit bu təsiri bağışlayır? Sual vermək nə qədər asandırsa, ona cavab tapmaq və izahını vermək bir o qədər çətindir. Mənə elə gəlir ki, bütün sualların birdən artıq cavabı var, daha çox, xeyli, hətta bir suala yüz cavab oyunu oynamaq olar. Bunu da yalnız sözdən anlayan çatdıra bilər. Sözdən anlamağın özü də hal adamı olmağa bərabərdir.

Bütün bu özəllikləri özündə cəm edən Zakir Məmməd haqdadır birinci söhbətim. "Sözə təşnə Zakir Məmməd" haqda...

Hər qoltuğa dayaq girmir,
Hər qəflətə oyaq girmir.
Bu qablara ayaq girmir,
Düz ayaqqabı düzəldin.

Sözü özü üçün qəlb zümzüməsi, könül pıçıltısı edən Zakir müəllimin lirik dünyasından boylanıram. Hardasa çox-çox uzaqlarda ədəbi aləmin içindən yavaşca və səssizcə, heç kimin görmədiyi və bilmədiyi yerdən kök atıb çıxan bu adamın öz yerişi ahəngində duyumu və həssaslığı var. Başını ağır-ağır tərpədib gülümsədikcə uca dağların başındakı qıyya havasında qanadlanan qartal sayağı çöhrəsindəki ani təbəssümüylə öz dəst-xəttini, möhürünü olduğu yerə vurur, damğalayır, silinməz edir. Vaxt, zaman, məkan onunku deyil. O bütün hallarda olduğu yerdə deyil, zamanından çox-çox öndədir. Yerişi ağır, sürəti iti, təzadı bir ayrı

düşüncə. Nə qədər istəsə belə, əlinə qələm alanda bu ağır təzaddan qurtulub yazmaq bacarığını ona bəxş edən Tanrıdan uzaqda ola bilmir. Tanrısını Hira dağında özü yaradıbmış kimi peyğəmbər libasını geyinib sözə ehya verib bu adam. Heç nəyi yoxdur, qapısında hörümçək tor qurubdur yüz ildir, sözdən yellər oynasa da, onun içindəki min illik sükutu pozmağa imkanlı deyil. O hörümçək torunda da özəllikləri var bu adamın. O hörümçək torundan da sevmədiklərini asıb qətlə yetirə bilir. Elə şirin-şirin can verir ki sevmədiklərinə də... Onları öldürüb yenidən diriltmək gücünə malikdir Zakir Məmməd. Zamanın qurduğu tələ onun qapısının ağzındakı adi bir hörümçək toru qədər deyil. Onun qapısı da elə bir kitab vərəqinin sonuncu sətri kimi oxunub bitirildikdə anlaşılandı. O, bu qədər gizlidir. İçində gizlidir, yazılarında gizlidir. Hamıdan yazmağı bacardığı kimi, heç kəsdən gözləmədiyi bir dərinliyi yenə dönüb-dolanıb özündə tapan adamdır Zakir Məmməd. İnsanı böyük edən onun təmənnasızlığıdır. Hamıya, hər kəsə qarşı onu təmənnasız edən ürəyi olmasıdır. Düşmənini də sevə bilər insan. Düşməni olmayan adamdır ədəbiyyat adamı. Bax elə ona görə də əsl ədəbiyyat adamıdır Zakir müəllim. Tənhalığı biçimli, əyninə ölçübiçisi doğru... Sözü kimi kəsərli...

Nə gecən var, nə gündüzün,
Bu dağ, bu meşə sənindir.
Ula, boz canavar, ula,
Bu qəmli peşə sənindir.

Söz belə yerdə bitir və yenidən doğulur. Hər misrada belədir... Hər yazısında yenidən doğulan söz adamıdır, hər yazısında öz qəhrəmanından uzaqda qalmağı tərcih edəndir. Qələmini qanına batırıb yazandır söz adamı. Gözlərinin yuxusuzluğu, ağrı-acısı tökülmədisə yazdığının üstünə, ondan söz ətri gəlməz. Ürəyinin çırpıntıları payız yarpağı kimi xışıldamadısa, heç nə!.. Qələmi yerə qoy!.. Zakir Məmmədin istədiyi bax budur!

Bu dünya binadan-başdan
Var toplayır qucaq-qucaq.
Xırda qarışqasına da
Yükünü daşıtdıracaq.

Fəlsəfə bizim daxilimizdə olan duyum boyda vicdan yükü kimidir. Kim nə boyda vicdan sahibidirsə, o boyda duyğu adamıdır. Harasından boylansan bu dünyaya, həyat eşqinin nə rəngini, nə ölçüsünü, nə var oluşunu bilməzsən, duyğuların olmasa... Bəzən bir bənd şeirdə varsan, bəzən bir misra sözdə... Yazdığın səni sevindirər, yazdıqca oxucunun ürək ritmindən qopan bir dağ şəlaləsi kimi şaqraq nəğmə səsi boylanar misralarından. Kimə nə yazdığını bilərsən, heç kimi unutmadan, vəfasız çıxmadan, hətta əlindəki qələmə də sadiq yoldaş olmağı seçərsən. Heç xəyanətkar gördünmü özün kimi? Gecənə xəyanət etdin, qəlbinə xəyanət etdin, yuxuna, varlığına, yoxluğuna, zamanına xəyanət etdin. Hətta xəyanət sözünü dilə gətirməmək üçün sözün özünə də xəyanət edəcəkdin ki, dönüb bütün günahlardan keçib söz adamı oldun. Günahların bağışlansın deyə, dəridən-qabıqdan çıxan baxışlarına da yolçuluq etdin bəzən... Təbəssümünü bağışladığın O deyildisə, bağışlamaq istədiyin bəs kim idi? Sən ona aparan yollara da yoldaş olmadın. Bütün bu ağrılardan keçib ucaldın özün olmaq mərtəbəsinə.

Bax, budur sənin cavabını bildiyin suallar!
Şeir kimi ömrü uzundur Sözün!

Yer üzü adamla dolu,
Adam da bir az qorxulu.
Yol da ki Allahın yolu,
Bu yoldan hər adam keçdi.

Zakir müəllimin öz təbirincə desək, "**gül gülü çağırır, bülbül bülbülü, nə vaxtdır, adam adamı çağırmır**", "**xoruz da banlayır, səhər də açılır, adamın ürəyi açılmır**", "**nə vaxtdır, baş saxlayır hərə bir cür, çünki bu baş lazım olacaq yaxşı-yaxşı düşünməyə**"... Bəli, nə vaxtdır, dostlarla münasibətdən daha yaxşıdı başı qarlı uca dağların seyrinə dalmaq, nə vaxtdır, adam unudub adamları da, elə adam olmaq da unudulub, kəm-kəsir dərdi çəkməkdən şişib adamların başı... Vaxt qazanmaq da yaramır ömür etməyə, ömürdən bezir adam... Zakir müəllimin bu "nə vaxtları" öz zamanından keçib keçmişə dalıb, günümüzə gəlib çıxıb, gələcəyə aparır yer kürəsini, çünki nə vaxtdır, yer kürəsi boş-boşuna yaxşı şairləri dənləməklə məşğuldu...

Bir az göydən, bir az yerdən şair olmaq istəyi azalacaq bu dünyanın...

Baxım, özümü unudum,
Qurusun lap matım-qutum.
Bir az göylərə üz tutum,
Bir az da aşağı baxım.

Hamıdan və hər şeydən yazacaq Zakir Məmməd, bircə özündən yazmayacaq, öz vaxtını hamıya və hər kəsə sərf edəcək...

## "SÜKUTUN SƏSİ"NİN SEHRİNDƏ

***(Sevinc Məmmədova – İkinci yarpaq)***

"Özü özünə, həqiqəti həqiqətinə, yuxuları yuxularına bənzəyir onun Vətəninin, torpağının, elinin, obasının... Ağrısı da eynidir. Sızıltıları da... Bir Vətən şeiri gəzdirir sinəsində... Köksündə ilişib qalan güllə kimi... Yaza bilmir vərəqlərə. İncidir, ağrıdır... Çin olmur nə vaxtdır yuxuları... Gəlinlik otağı kimi boyatlaşıb gözündə həyat..."

Nə yazasan bu düşüncələrdən sonra? Nə yazsan, o acını dindirə bilməzsən ki...

Hərdən yaşamaq ağır olanda asırıq özümüzü göz yaşlarımızdan.

Diqqətlə baxsaq, görərik ki, bütün güzgülərdə göz yaşlarının şoranlamış ağ ləkələri durur. Bütün daraqlardan yarı ağarmış saçların ilk baharı boylanır. Hər evdə ən azı bir pəncərə və bir qapı olur. Şair dünyasının pəncərəsiz və qapısız damında o dünyanın özü boyda al şəfəqləri, heç zaman solmayan əbədi bir günəşi boylanır. İşığı kərpiclərin arasından sızdıqca özünü unudan canın qəm fərağında eşidilən naləsini ört-bas edə bilmir. Amma o işıqdan süzülən məlhəm onu dinləyən və ona baxan insanlara çarə olur, bu qarmaqarışıq dünyanın fərqli-fərqli insanlarına "Gülüşünü sevirəm", deyir... Sonra da bu sevgiylə davam edir öz haqq yoluna... Qarşısına çıxan bütün insanlara gülümsəyərək keçir. Hamısına sevgi paylamaq istəyir... yaxşılara da, yamanlara da, əyrilərə də, düzlərə də... Birdən yorulur və usanır... Elə bu dəmdə dəli bir sükut çökür ürəyə... Ürək haray çəkməyə başlayır...

Gülüşünü sevirəm,
Kədər dolu gözlərin
ulduz-ulduz alışır...
Mənə böyük bir eşqin
mümkünsüz taleyindən
vərəq-vərəq danışır...

Birdən geriyə boylanır. Yaşanan və yaşanmayan xəyallar içində çırpınır bədəni. Gecələr üstünə çökdükcə özü özündən yaxa qurtarmaq üçün yazır. Yazdığı hər şeir əslində bir ağrılı "Etiraf"dır.

"Sevməmişəm səni o vaxt qədərincə", deyir...

Bu ki sevginin doğurduğu bir qadın qürurunun təcəssümüdür. Müəllif beləcə davam edir:

Bir adicə maraq olub,
inad olub bu duyğular.
O yaşınla nə biləsən,
həyat nədir, sevgi nədir?
Sevməmişəm səni o vaxt,
yanımdaykən necə sevim?
İtirilmiş xoşbəxtliyin qiymətini
kim bilib ki, mən də bilim?!

Şairlikdə bütün gözəlliklər ağrı ilə paralel gəlir dünyaya. Ən gözəl duyğular da, o duyğulara bələnən şeirlər də, insanlara sevgi və insanlardan qazanılan etibar və güvən hissləri də... Hər şey gözəldir! Ancaq heç nə sadə və asan deyil. İçimizdə bizi belədən-belə sürükləyən ağrılarla paralel davam edir, irəliləyir, böyüyür həyat eşqi. Elə o ağrılar kimi...

Şair özünü yazanda səmimi olur. Şairlik özünüdərkdən başlayır. Özünü artıq düşünməyə başlayırsan və səni incidən nə varsa, daşaraq ətrafa səpələnir. Yeridiyin yollarda, küçələrdə, sənə rahatlıq verməyən gecələrində, oyananda günəşi salamlamadan başladığın günlərdə də bir ümid, bir ağrıdan qurtulmaq üçün sənin bədənindən bir sığınacaq kimi istifadə edir. Özü də çox insafsızcasına, səni özünə təslim edərək...

Töküləsən...
Bu tökülmək gözəl yaşam...
Dəyib dibinə töküləsən!
Köhnələsən,
sökülüb töküləsən!
Bax beləcə, özündə durmayasan...

“Hər sevginin öz taleyi varmış...” Nə gözəldir öz taleyini yaşamaq!

“Özünün özünə qalib gəlməyində, o biri uduzan tərəfinin ağrılarına dözə bilməyində bir də bu dünyaya bəslədiyin sonsuz güvən hissləri durur.”

“Hər sevginin öz taleyi varmış”, deyir müəllif. “Ürəyinin qapılarını gözlənilmədən bərk-bərk döyən bu gözəlliyə qovuşub xoşbəxt də ola bilərsən. İztirab, ayrılıq, qəlbinə ömürlük məhkumluq əzabı da daşıya bilərsən, kim bilir...” Və belə bitirir:

“Bizim qismətimizə ayrılıqların ən
gözəli düşüb!”
“Göz-gözə, səs-səsə yaşayaraq”
ayrılmaq olurmuş!
“İçin-için qovrula-qovrula” ayrılmaq
olurmuş!

Xeyr! Bu, Ayrılıq deyil ki, bu da Sevginin qürur nəzəriyyəsindən boylanışıdır...

İzn ver, keçib gedim,
Bir günah seçib gedim.
Yolların başı bağlı,
Sinəndən keçib gedim.

Bir qapını döyməmişdən öncə nə düşünər insan? Düşünərmi? Qapının o üzündə nələr gözlər onu bəs? Üzünə açılacaqmı qapı? Qapının hansı üzündəsən, düşündünmü?

Şairlərin döydüyü qapılar açılmaz!

Ağrıların düyünü açılmaz ki... Yollara çıxarsan boylanmağa, darıxmaqdan keçərmiş həyat!

Şairin yol üçün ayrı tədarükü var. Onun yolları xəyallarını bitirməklə məşğuldur.

Bu yollar nə qədər gedən ağlayıb,
Qaytara bilməyib, ağlayıb hədər.
Mənim söz yükümü sənlə bağlayıb,
Çəkəcəm, deyəsən, sonuma qədər...

Müəllif başladığı sətirləri başqa cür bitirə bilmir və onun yolları “Uzanır həsrətin qolları kimi...”

Bütün qadınlarda bir duyğu var, qadınlığının isbatı kimi o duyğunu səhər-axşam çək-çevir edir. Çox maraqlıdır... İstədiyi alınmayanda daha az Qadın olur. İstədiyinə çatınca tam Qadın olur və gülür, sevinir, bayram edir... Amma Qadınlıq şairlərin zərif cinsinə necə yaraşmasın? Axı Poeziya əsl Qadın gözəlliyidir! Bizim müəllif “Bir qərib durnanın qərib səsiydim” deyən Qadındır!

“O” istəyən Qadın ola bilməyən, xiffətdən saralıb solmayan, qarşısındakına havalanmaq üçün qol-qanad olmayan Qadın! Sonra səbri tükənir və hayqıraraq “Get” deyir. Bu Qadının “get” sözündə bir məna var, sadiq ola bilmirsənsə, qalma!

Ümidini təpər eylə dizinə,
Bu yollarda qürurunu yıxıb get.
Güc eyləyib xatirəmi özünə,
Yaşla dolu gözlərini sıxıb get.

Arxa çevirib gedəcəksən bir gün özünə də... O zaman üzünə güldüyün adamlar qalacaq arxanda, arxanca səni dartışdırmağa.

Təsəvvür elə... Bir tənha qoz ağacı yüz hektarlıq sünbül zəmisinin tən ortasında. Tək-tənha... Yanına çatanda ayaqların tamam taqətdən düşür, asılıb qalırsan bir budağından. Koğuşunda bir boşluq var. Boşluqda uzandıqca uzanan qaranlıq bir labirint. Düşüb gedirsən özünü gəzməyə. Altında iki daş arasında qaralmış ocaq yeri... Xeyli baxırsan... Baxırsan... baxırsan... Tək qalmaq xoşuna gəlməyə başlayır... Bir nəğmə yatıb dilində, oxusan, dağlara səda düşər səsindən. Qorxursan, tir-tir əsir ürəyin... Amma bura qədər gəldiyin yolun o başındakı təpədə sənin evin varsa, nə gözəl. Əgər o gözəllikdə bir də gözlədiyin insanın gəlişi durursa əgər, cənnət... Bunlar real olmaya bilər... Amma bunlar real olduğu üçün daha böyük ümidlər verir, sonra əlindən alıb səni məhv etməyə.

İstəmədən saçlarını bir əl oxşayır.

Bu yaz da gecikdi, yubandı yaman,
Tükəndi dağ səbrim naşı yollarda.
Qayıt gəl, yurdumun nazlı durnası,
Bahar həsrətimi daşı yollarda.

Gözləyirsən işığı yansın dünyanın. Aha, yanır...

Yenə bu sevginin baharı gəlir,
Həsrəti don geyib güldən, çiçəkdən.
Yırtıb butasını yarpaqlar kimi,
Qol-qanad bağlayıb güldən, çiçəkdən.

İki daş arasındakı ocaq alışmağa başlayır. Uzadıb əllərini qızdırırsan. Gözlədiyin gəlir... Elə bir tikə qayğıya "Bismillah" etmək istəyirsən ki...

"Nə yaxşı, vaxtında tanıdım səni..."
Heyiflər...
"Gülləri tumurcuq, yarpağı yaşıl,
Budanmış, qırılmış budaq kimiyəm."

Qayıdırsan təpənin başındakı evinə... Masanda bir məktub var, bayaq yazmışdın, göndər ünvanına, nə vaxtdır, heç kim məktub yazmır Allaha. Sənin ağlına bu hardan gəldi? Yazırsan:

Allah, bu dünyanın sözü qurtarıb,
Nabatı, şəkəri, duzu qurtarıb.
Yarama qoymağa buzu qurtarıb,
Səndən nə diləyim, dilək verənim?!

Bir başqa...

Keçə bilmərəm bu yolu,
Qəbahətdir sağı, solu.
Yaranmışıq Allah qulu,
Tanıma məni, tanıma...

Ruhun yaxındır göylərə, ruhunu qoru, ürəyin sevgi mayasıdır, ürəyini qoru....

## OXUNACAQ ƏN BÖYÜK KİTAB İNSANDIR

***(İbrahim İlyaslı – Üçüncü yarpaq)***

Bir sevgiyə tutalğacdım,
Bir əhli-hala möhtacdım.
Öz ağlıma ürək açdım, –
Məni başından elədi.

Bəzi şairlər öz şeirlərinə bənzəyirlər. Oxuyan kimi hiss edirsən ki, hər şey öz qaydasındadı, amma yenə də nəsə çatmır. Və bir gün o "nəsə"ni tapıb yerinə qoyanda onun RUH olduğunu görürsən. Bəli, şeir var, amma ruh yoxdur!

Bəzi şairlər öz kitablarına bənzəyirlər. Nəfis, səliqə-sahmanlı, o qədər işıqlı görünür ki üzləri, içləri, sanki heç zaman açılmamış və oxunmamış... Bəzən kitablar da öz sahiblərinə oxşayır. Çılpaq, yırtıq-yamaq, darmadağın olmuş xəyallar kimi, yuxusuz gecələr və islaq məndillər kimi... Bu insanlar oxunduqca vərəqləri saralar, solar, amma təsəlli yerləri elə oxunmaları olar, təəssüf...

YOXluğu VARa çəkilən,
Qəmi bazara çəkilən,
Haqqından dara çəkilən
Ya RUHumdu, ya da mənəm.

Bəzən quşlarda da belə olur. Quşlar yuvalarını özləri boyda tikirlər, bir quş iki quşluq yuva tikir, deyərdim, "özləri" deyəndə də elə bunu nəzərdə tuturdum. Amma elə yuvalar da olur ki, yuvasızlar da, yuvası uçulanlar da, köçdən geridə qalıb xəstəlikdən can verənlər də ora pənah gətirir. Çox az-az şairlərin kitabları da, şeirləri də, elə özləri də həmin yuvaya bənzəyir. Hansısa bir qəlbin tutalğac yeri olur.

Sıralamanı o qədər artırmaq olar ki...

Bəzi şairləri kitabından tanımaq olur, kitablarını oxumasan, şair olduqlarına məəttəl qalarsan. (Və bunu gizlədərsən, şübhəsiz.) Belə yerdə şair yazmağım doğru çıxmadı, şeir yazan demək istədim.

Ömrünün yazını ötürən bir müəllifin payız mövsümündəki şairliyi xırmandan dənin sovrulmasına oxşayır. Yeni dəni şuma səpəndə torpaq cana gəlir sanki, amma torpaqda cana gələn əslində dənin özüdür ki var. Şairlər də torpağa həssas olurlar, doğulub boya-başa çatdıqları torpağa. Ömrün xırman çağında istəkləri öz torpaqlarında dən salıb göyərmək olur yenidən. Amma harada yaşamalarından asılı olmayaraq, elə şairlər öz dəli və eyni zamanda da qəriban ruhları ilə ətraflarından sıyrılıb az qala heç bilmədikləri dünyaya çağırış etməyə başlayırlar, bütün hallarda şairliklərindəki RUH ilk günlərdə olduğu kimi qalır.

Torpaq kimi əkilərik,
Toxum kimi səpilərik.
Vaxtı gələr, çəkilərik –
Sən qeybə, mən çarmıxa.

Heç şübhəsiz ki, Tanrı bu dünyanı xəlq edəndə şairlərin yaradılışına bir başqa ruh qatmışdır. Həmin Ruhdan payına az düşənlər də var, çox düşənlər də... Amma İbrahim İlyaslının payına düşən RUH qədərincə olub, özü onun bir hissəsini xərc edib, digər hissəsini də saxlayıb onu xəlq edənin hüzuruna çəkməyə... Mən İbrahimi tanıyanda bizim Xaqani Poeziya Evində ilk görüşümüz, amma ümumən götürsək, üçüncü məclisi-şüəramız idi. İlk dəfəsində onu ikinci görüşdən çox-çox əvvəl çəkdirdiyimiz bir şəkil üstündə olmuşdu, hərgah bunu şəkillənən görüş saymaq olar. İkincisində o məni tanımağa cəhd göstərmişdi və üçüncüsündə, artıq Poeziya Evinin fəxri qonağıydı. İbrahim ruhu özündən əvvəl doğulan şairlərdəndi. Və mənə nədənsə elə gəlir ki, İbrahim Şabrandakı Poeziya Evinə özündən əvvəl ruhunu göndərmişdi. (Yazımın bu yerində İbrahimin ruhundan can bulan kitablarına tərəf baxıram, yaxşı ki, kitablar var, deyirəm, çünki İbrahimin kitabları da özündən əvvəl yazılıb sanki, ruhu kimi dolaşa-dolaşa bu şəhərin küçələrindən sivişib göydəki buludlaracan qalxıb).

Bir az bu ağaca, bir az o daşa,
Bir az bu torpağa oxşayıram mən.
Bir az ağac ömrü, bir az daş ömrü,
Bir az torpaq ömrü yaşayıram mən.

Çox qəribədir, əvvəl qeyd üçün şeirdən bir bənd götürərlər, onu xırdalayıb təhlilə keçərlər, adətən, belə olur, amma mən əksini edirəm, əvvəl ürəyimin göynəyini dilləndirirəm, sonra İbrahimin şeirlərindən həmin göynərtiyə uyğun gələnini seçib götürürəm. Əlimin altındaymış kimi seçib götürürəm özü də…Mənə yazılmış kimi oxuyuram, yaşayıram, arada ayılıb kitabın çıxdığı tarixə də baxıb gözümü döyürəm. Gerçək yuxudur, sanıram, hər halda ruhu özündən əvvəl doğulmuşlar hər fəsil ömrün şairlərindən sayılırlar, deyərdim. İbrahimlə tanışlığıma, dostluğuma heç cür güzgü tuta bilmirəm. Mənə elə gəlir ki, bizim ruh halımızın dost olduğu zamanlarda güzgünün özü belə kəşf olunmayıbmış. Bizi doğma edən ruh halımız daş dövründən keçib bugünümüzəcən gəlib, bizi bir ömrün ayrı-ayrı fəsillərində iki Poeziya Evinin divarları arasında doğmalaşdırıb.

…Divarların bu üzündə,
Qismətim qubardı mənim.
Hər yan gözəllikdi, Tanrım,
Hər yanım divardı mənim.

Necə deyiblər, odu sevənlər müxtəlif olur; kimi istisinə, kimi tüstüsünə, kimi işığına görə; kimi öz canını oda yaxmaq üçün, kimi başqalarını yandırmaq üçün.

Biz, adətən, özümüzü yox, başqalarını görürük. Özünü görməyin yolu isə özünə başqalarının gözü ilə baxmaqdır. İbrahim də belədir, özünə başqalarının gözü ilə baxanlardandı. Amma başqalarını görmək üçün onun RUHunun da öz gözləri var. Və o hamıya ruhunun gözləriylə baxmağı bacarır. Alın yazısı bir dəfə yazılır, amma insana onu hər dəfə yenidən yazmaq şansı verilsəydi, əminəm ki, İbrahim öz alın yazısını dəyişmək üçün heç nə etməyəcəkdi.

Günümüzün insanı köklərindən qopmuş bir ağacdır. Günümüzün şairlərinə daha böyük məsuliyyət düşür bu halda.

Hər dağın döşündə çiçək,
Dibində duman yeri var.
Hərənin bir güvənc yeri,
Hamının uman yeri var.

İnsan var, dərya kimidir, baş vurdunsa, çıxmaq çətindir; insan var ki, divar kimidir, qarşında durur və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir – dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır. İnsan kimi insan, şair kimi şair, dost kimi dostdur İbrahim İlyaslı!

**AY Bəniz ƏLİYAR**